18 və 19 oktyabr 2013-cü il tarixlərində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində aşağıdakı imzalanma və açılış mərasimləri keçirilmişdi.

## 1. "Qax Rayonununda tullantıların idarə olunması" layihəsi üzrə qrant müqaviləsinin imzalanma mərasimi

Layihənin əsas məramı Qax rayonunda tullantıların və təkrar istifadənin praktik olaraq davamlı şəkildə idarə olunmasının həllini təmin etmək məqsədi ilə rayondan kənarda yanma kameralarını inşa etməkdir. Layihədə faydalanacaq şəxslərin sayı 18, 675 nəfərdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği **116,185 ABŞ dolları** təşkil edir**.**

Missiya Rəhbəri Müavini xanım Ono tərəfindən nitq



İmzalanma mərasimi



Xanım Ono və cənab Dadaşov tərəfindən imzalanma




Qax şəhəri İcra başçısı da imzalanma mərasimində iştirak etmişdi



## 2. Balakənin Kortala kəndində tibb məntəqəsinin tkintisi” layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi

Layihənin əsas məqsədi Kortala kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər kəndlərin sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 8000 nəfəri əhatə edir. Sözügedən layihənin ümumi dəyəri **121,726 ABŞ dolları təşkil edir.**

Missiya Rəhbəri Müavini, Müşavir xanım Ono tərəfindən nitq





Yeni tikilmiş Kortala Tibb Məntəqəsinin binası



Ultrasəs aparatı və ginekoloji masa ilə təchiz edilmişdi

